# Hər bir azərbaycanlının qürur mənbəyi – Qarabağ



**Füzuli rayonu 1993-cü il avqustun 23-də erməni qəsbkarları tərəfindən işğal edilmişdi. O vaxtdan Füzuli füzulililərin həsrətini çəkirdi, onların isti nəfəsi üçün darıxırdı. Elə biz də Füzulinin yaşadığı ağrı-acılarla nəfəs alırdıq. Deyirlər ki, adam yatanda ruh bədəni tərk edib insanın arzuladığı yerlərə gedir. Bəlkə də bu, həqiqət olduğuna görə, bir an belə unuda bilmədiyim ata ocağını tez-tez yuxularımda görürdüm.**



...Oktyabrın 17-də gecə saat 1-də Gəncə şəhərində mülki əhali ermənilər tərəfindən raket hücumuna məruz qalmışdı. Həmin gecəni yatmamışdım. Erməni faşistləri tərəfindən hər birimiz üçün ağır və üzücü terror törədilmişdi. Səhər saatlarında isə cənab Prezident erməni terroru barədə danışmaqla bərabər, Füzulinin işğaldan azad edilməsi ilə bağlı əhaliyə şad xəbər də verdi. Həmin gün, necə deyərlər, bir gözümüz ağlasa da, bir gözümüz gülürdü. Çox sevindirici və təsirli anlar idi. Çünki 27 il idi ki, Füzuli şəhərinə və kəndlərinə gedə bilmirdik.

Mənim uşaqlığım Füzulinin Aşağı Güzlək kəndində keçib. Rayonun ən ucqar yaşayış məntəqələrindən biri olan bu kənd Cəbrayıl və Dağlıq Qarabağa daha yaxın idi. Kənd sakinlərinin sayı təxminən 500 nəfərə çatırdı.

Bütün uşaqlıq xatirələrim Füzuli ilə bağlıdır. Rayon ötən illər ərzində daim kino lenti kimi gözümün önündən keçib. Yuxularımda da tez-tez kəndimizi, oxuduğum məktəbi görmüşəm.

Rayon düşmən tərəfindən istila olunduğu zaman Bakıda ali təhsil aldığım üçün orada deyildim, ancaq ağrı-acı dolu günləri çox gözəl xatırlayıram. Anam və kiçik qardaşım kənddə qalırdı. Mütəmadi olaraq kəndə ailəmi ziyarət etməyə gedirdim. Doğmalarımla Qarabağın son vəziyyətini müzakirə edirdik. Amma Füzulinin nə zamansa işğal olunacağını heç ağlımıza belə gətirmirdik. Sonuncu dəfə tətil vaxtı rayona gəldiyim avtobusu ermənilər güllə yağışına tutmuşdular. Təsadüf nəticəsində sağ qalmışdım. Həmin gün anam və qardaşım məcburiyyət qarşısında kəndi tərk etdilər. Onu da deyim ki, anam kənddən çıxmaq istəmirdi. Təkcə anam yox, bütün kənd camaatı doğma yurdu tərk etmək fikrində deyildi. Dəfələrlə camaata xəbərdarlıq olunmasına baxmayaraq, heç kim doğma kənddən çıxmaq barədə düşünmürdü. Ancaq ermənilər tərəfindən dayanmadan atılan güllə səsi insanları vahimələndirirdi. Artıq getdikcə evlər dağıdılır və ailələr çarəsizlikdən kənddən çıxırdı. Onu da deyim ki, ailəmiz kənddən didərgin düşərkən, nə bir şəkil albomu, nə də bir sənəd götürə bildi. Çox ağrılı günlər idi...

Füzuli ərazi cəhətdən, həmçinin iqtisadi güc baxımından da respublikada mühüm önəm daşıyırdı. Azərbaycanın ən böyük rayonlarından biri idi, ümumi sahəsi 1386 kvadratkilometr idi. Rayonda aqrar sektor ilə bərabər, sənaye sahəsi də inkişaf etmişdi. Sənaye müəssisələri tərəfindən o zaman keçmiş SSRİ-nin digər bölgələrinə məhsul göndərilirdi.

Rayondakı sənaye obyektlərini, vətəndaşların daşınmaz əmlak və kənd təsərrüfatı sahələrini də nəzərə alsaq, işğal zamanı Füzuliyə dəyən zərərin kifayət qədər böyük olduğunu görərik. Qiymətləndirilməyə əsasən, rayon işğal olunan vaxt Füzuliyə 10 milyard manat dəyərində ziyan dəyib. Onu da vurğulamaq lazımdır ki, artıq 27 ildir ki, Füzuli işğal altındadırsa, o zaman dəymiş zərər 10 milyard manatdan qat-qat çoxdur.

1993-cü ildən Füzuli rayonu, demək olar ki, tam şəkildə işğal altında idi. Bir müddət sonra Azərbaycan Silahlı Qüvvələri tərəfindən ərazilərin bir hissəsi erməni faşistlərindən azad edildi. Bir füzulili kimi bildirirəm ki, məhz həmin vaxt rayonun Horadiz şəhəri daxil olmaqla ərazilərimizin bir hissəsinin işğaldan azad olunması birbaşa ümummilli lider Heydər Əliyevin siyasi iradəsi və Ali Baş Komandanlığı ilə gerçəkləşdi. Sonrakı dövrlərdə də Füzulinin işğaldan azad olunan kəndlərinin yenidən qurulması və infrastrukturunun inkişaf etdirilməsi həm dahi öndərimizin, həm də cənab Prezident İlham Əliyevin xüsusi diqqətində oldu. Nəticə etibarilə biz işğaldan azad edilən ərazilərimizdə infrastrukturun tam olaraq formalaşdırılmasını müşahidə etdik.

Bu gün erməni təxribatı nəticəsində mülki əhali də erməni hücumuna məruz qalıb, çox sayda yaşayış evləri və sosial obyektlər, infrastruktur dağıdılıb. Amma sakinlərin təhlükəsizliyinin qorunması üçün bütün tədbirlər həyata keçirilir.

Erməni silahlı qüvvələrinin mülki vətəndaşları və kəndləri atəşə tutması beynəlxalq konvensiyalara ziddir. Çünki bütün hallarda müharibə zonasında mülki vətəndaşların hədəfə alınması yolverilməzdir. Amma müşahidələr göstərir ki, erməni silahlı qüvvələri bilərəkdən dinc insanları atəş altında saxlayır.

Ümumiyyətlə, erməni işğalçılarının Azərbaycana məxsus yaşayış məntəqələrini intensiv şəkildə atəşə tutmaları işğalçı dövlətin beynəlxalq hüquq normalarına, habelə müharibə qaydalarına əməl etmədiyini göstərir. Ermənistan ordusunun mülki əhalini atəş altında saxlaması onun terrorçu və anti-insani mahiyyətini göstərir.

Hazırda Füzulidə mülki vətəndaşlar gecə-gündüz atəşə tutulsalar da, əmlaklarına ciddi ziyan dəysə də öz evlərindən çıxmayıblar, hər kəs öz işində-gücündədir. Bunu televiziyaların canlı yayımlarından da görmək mümkündür. Xüsusən, erməni təxribatı başlayandan sonra Horadiz şəhərində gəzən zaman çox sayda insanları gördüm. Onlar yaxınlaşıb Ali Baş Komandanın əmrinə uyğun olaraq ordumuzun əks-hücum əməliyyatlarında iştirak etmək, Vətən uğrunda döyüşmək istəklərini bildirirdilər.

Bu baxımdan hər hansı bir mülki vətəndaşın atəşə tutulması və əmlaka dəyən ziyan heç bir halda vətənpərvərliyə və əhval-ruhiyyəyə təsir etməyib. Füzuli sakinləri hamılıqla rayondadır. Sözsüz ki, burada təhlükəsizliyin qorunması ilə bağlı tədbirlər də həyata keçirilir və bu, davam etdiriləcək. Xüsusən, yaşlı sakinlərimizin və uşaqların təhlükəsizliyinin qorunması çox vacibdir. Bu istiqamətdə də işlər görülür.

Hazırda Füzulidə olan hər bir sakin ordu üçün, qələbə üçün nəsə etməyə çalışır. Baxmayaraq ki, ordumuzun ərzaq, o cümlədən dərman təminatında hər hansı bir problem yoxdur, amma sakinlər rayonun müvafiq icra strukturlarına orduya ərzaq, siqaret və ya dərman preparatı göndərmək istəklərini bildirirlər. Fikrimcə, bu, ümumi birliyi göstərən əyani bir misaldır.

Yeri gəlmişkən, onu da vurğulayım ki, Azərbaycan iqtisadiyyatı müharibəni qələbəyədək heç bir çətinlik olmadan aparmağa imkan verir. Yəni Azərbaycanın iqtisadi potensialı kifayət qədər yüksəkdir. Hazırda dövlət rezervlərimiz 43 milyard dollardan çoxdur, eyni zamanda, biz əvvəlki illərdə də Azərbaycan Ordusunun maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı işləri genişləndirmişik. Son illər illik olaraq 3 milyard manatdan artıq vəsait birbaşa müdafiə qabiliyyətinin gücləndirilməsi üçün büdcədən ayrılıb. Bu da təbii ki, ordumuzun maddi-texniki bazasının möhkəmlənməsinə əlverişli imkan yaradıb.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***